

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 188 (21.598)

7 oktyabr 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Oktyabrın 6-da Bakının Xətai rayonunda yeni yaradılan "Sevirəm" park kompleksinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva açılışda iştirak ediblər.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva parkın rəmzi açılışını bildirən lenti kəsiblər.

Bildirilib ki, yeni park kompleksinin ümumi ərazisi 3,2 hektardır. Parkın uzunluğu 288 metr, eni isə 110 metrdir. Park kompleksinin üç girişi var.

Ərazidə təbii daşlardan yonulmuş heykəllər landşaftla vəhdət təşkil edir. Parkda qoyulmuş 14 heykəlin hər biri xüsusi dizaynı və üslubu ilə fərqlənir.

Yeni istirahət guşəsinin ərazisində yaradılmış şəlalədə dekorativ və təbii daşlardan istifadə olunub. Burada uşaqlar üçün əyləncə meydançası və yelləncəklər quraşdırılıb.

Kompleksin ərazisində iki yerdə avtodayanacaq, bir dekorativ perqola – keçid və kafe var.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva yeni park kompleksində ağac əkiblər.



## Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının Babək Rayon Təhsil Şöbəsi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı keçirilib

***Oktyabrın 6-da keçirilən hesabat-seçki yığıncağının gündəliyində ilk partiya təşkilatının fəaliyyəti haqqında hesabat, təşkilati məsələlər və rayon təşkilatının XII konfransına nümayəndələrin seçilməsi məsələsi var idi.***



Hesabat-seçki yığıncağının gündəliyi yekdilliklə qəbul olunub.

Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının Babək Rayon Təhsil Şöbəsi ilk partiya təşkilatının sədri Vahid Fərzəliyev hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, ötən dövr ərzində iş planına uyğun olaraq fəaliyyətimizi davam etdirmiş, işlərimizi partiya nizamnaməsinin tələblərinə uyğun səviyyədə qurmağa çalışmışıq. Babək Rayon Təhsil Şöbəsi ilk partiya təşkilatı sıralarına qəbulda kəmiyyətə deyil, daha çox keyfiyyətə ciddi fikir verib. Ötən dövr ərzində partiyanın sıralarına şöbənin iki əməkdaşı qəbul olunub. Təşkilatımızın hər bir üzvü siyasi həyatda, o cümlədən keçirilən seçkilərdə fəallıqları ilə seçiliblər.

Babək Rayon Təhsil Şöbəsi ilk partiya təşkilatının hesabatı qənaətbəxş hesab edildikdən sonra təşkilatın yeni idarə heyətinin üzvləri, sədri və sədr müavinləri seçilib.

İlk partiya təşkilatına növbəti dəfə sədr seçilən Vahid Fərzəliyev bundan sonra da qarşıya qoyulan vəzifələri məsuliyyətlə icra edəcəyini bildirib.

Sonra Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının XII konfransına Babək Rayon Təhsil Şöbəsi ilk partiya təşkilatından 4 nəfər nümayəndə səsvermə yolu ilə seçilib.

Bununla da, Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının Babək Rayon Təhsil Şöbəsi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı sona çatıb.

***Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhəri müasir şəhərsalma prinsipləri əsasında qurulur.***

## Yenidən qurulan yaşayış binaları sakinlərin mənzil-məişət şəraitini yaxşılaşdırır, Naxçıvan şəhərinə gözəllik verir

İstifadəyə verilən sosial obyektlər, inzibati və ictimai yaşayış binaları şəhərin memarlıq quruluşuna yeni görkəm verir. Qədim və müasir memarlıq elementlərinin sintezi əsasında aparılan kompleks quruculuq işləri şəhərin görkəmini tamamilə dəyişib. Son illərdə Naxçıvan şəhərində onlarla yaşayış binası əsaslı şəkildə təmir olunaraq və ya yenidən qurularaq sakinlərin istifadəsinə verilib. Bu istiqamətdə işlər cari ildə də davam etdirilir.

Belə ki, Əziz Əliyev küçəsindəki 41 nömrəli yaşayış binasında son tamamlama işləri görülür. "Dizayn İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən 5 mərtəbəli yaşayış binasının pəncərələri dəyişdirilib, dam örtüyü, kommunikasiya xətləri yenilənib. Bundan əlavə, binanın zirzəmisi təmir olunub, fasad hissə üzlük daşla üzlənib. Hazırda binanın ətrafında abadlıq işləri görülür, yerə kilid daş döşənir, arxa və ön hissələrdə gülkarlıqlar üçün ərazilər hazırlanır.

Naxçıvan şəhərinin "İstiqlal" küçəsindəki yaşayış binalarına da son illərin quruculuq tədbirlərindən pay düşüb. Burada 99 nömrəli yaşayış binasının sakinlərin istifadəsinə verilməsindən sonra 111 nömrəli yaşayış binasının yenidən qurulmasına başlanılıb. "Dizayn İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaat-







çıları tərəfindən yenidən qurulan binada işlərə cari ilin sentyabr ayından başlanılıb. İlkin olaraq qəzalı vəziyyətdə olan eyvanlar və sonradan artırılan hissələr sökülüb, sonrakı mərhələdə binanın ətrafı beton sütunlarla möhkəmləndirilib. Hazırda sütunların ucaldılması məqsədilə beton-qəlib işləri davam etdirilir. Bununla yanaşı, yaşayış binası arxaya doğru 3 metrlik məsafəyədək artırılıb ki, bu da sakinlərin mənzil sahəsinin genişlənməsinə imkan verəcək. Zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan binanın daxilində suvaq işləri, elektrik və istilik xətlərinin yenilənməsi davam etdirilir. 36 mənzilli yaşayış binasının yenidən qurulması sakinlərin rahatlığını tam təmin edəcək.

Naxçıvan şəhərinin "Atabəylər" məhəlləsində isə 2 nömrəli yaşayış binasının yenidən qurulmasına başlanılıb. Qısa müddətdə "Cahan İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən yenidən qurulan binada dam örtüyü vurulub, kommunikasiya xətləri dəyişdirilib. Hazırda yaşayış binasının daxilində pilləkənlərə daş döşənir, suvaq işləri görülür. Binanın fasad hissəsinin birinci mərtəbəyədək üzlük daşla üzlənilməsinə başlanılıb.

Yuxarıda adıçəkilən yaşayış binalarının yenidən qurulması sakinlərin mənzil-məişət şəraitini yaxşılaşdıracaq, Naxçıvan şəhərinə əlavə gözəllik verəcək.

## Dövlət proqramı uğurla icra olunur

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası uğurla davam etdirilir.***

Adıçəkilən proqramda müxtəlif qurumlar qarşısında mühüm vəzifələr qoyulub. Cari ilin ilk 9 ayı ərzində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin proqramın icrası ilə bağlı görülən işlər barədə aldığımız məlumatda deyilir ki, muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə nazirlik tərəfindən müntəzəm olaraq təhlillər aparılır. Bu məqsədlə işəgötürənlər tərəfindən vakansiyalar haqqında hesabatların təqdim edilməsinə nəzarət və monitorinqlərin keçirilməsinə diqqət artırılıb, sosial müdafiəyə xüsusi ehtiyacı olanların və sağlamlıq imkanları məhdud şəxslərin məşğulluqlarını təmin etmək üçün sosialyönümlü layihələr həyata keçirilib, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatı müəyyənləşdirmək məqsədilə, ümumilikdə, 163 müəssisədə sorğu keçirilib.

Bəhs olunan dövr ərzində məşğulluq xidməti orqanlarında qeydiyyatda olan 2047 işaxtaran ayrı-ayrı müəssisələrdə mövcud olan vakansiyalar üzrə işə düzəldilib, 214 işaxtaran isə sosial əhəmiyyətli haqqı ödənilən ictimai işlərə cəlb edilib. Bunlardan 36 nəfəri sağlamlıq imkanları məhdud şəxslərdir. Ümumilikdə isə işlə təmin olunanlardan 76-sı məhdud fiziki imkanlı, 6-sı cəzaçəkmə müəssisəsindən azad edilən, 20-si hərbi xidmətdən tərxis olunan, 72-si isə aztəminatlı ailələrin əmək qabiliyyətli üzvləridir. Əmək yarmarkalarında 352 nəfər, həmçinin təhsil və səhiyyə müəssisələrində keçirilən əmək yarmarkalarında, ümumilikdə, 297 nəfər münasib işlə təmin edilib.

Bu dövr ərzində kənd və xidmət mərkəzlərinin kadr təminatı ilə bağlı Naxçıvan Regional Peşə Tədris Mərkəzində müvafiq peşələr üzrə kurslar təşkil edilib, xidmət mərkəzlərinin bərbər, gözəllik salonu və dərzi sexlərində olan vakant yerlərə, ümumilikdə, 53 nəfər işə göndərilib. Onların 5 nəfəri sağlamlıq imkanları məhdud şəxslərdir.

Məlumatda qeyd olunur ki, bəhs olunan dövrdə Naxçıvan Biznes Mərkəzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Miqrasiya Xidməti və İqtisadiyyat Nazirliyi ilə birgə işəgötürənlərlə görüşlərin keçirilməsi davam etdirilib, işəgötürənlərin əcnəbi işçilərə olan tələbatının maksimum səviyyədə yerli əmək ehtiyatları hesabına təmin olunması ətraflı təhlil edilib, yerli əmək ehtiyatlarından istifadə edilməsinin zəruriliyi və əmək bazarının tələbinə uyğun təşkil olunacaq peşə kursları barədə məlumatlar verilib.

Sosial müdafiəyə xüsusi ehtiyacı olanların və işə düzəlməkdə çətinlik çəkənlərin işlə təmin olunmaları üçün 64 müəssisədə 245 kvota yeri ayrılıb. Qeyd olunan dövr ərzində bu kateqoriyadan olan 21 nəfər kvota yerlərində işlə təmin olunub, habelə sosial qayğıya ehtiyacı olan şəxslərin özünüməşğulluqlarının təmin edilməsi, həmçinin fərdi təsərrüfatlarının inkişafı üçün iki aztəminatlı ailəyə müvafiq köməklik göstərilib.

Məlumatda o da bildirilir ki, muxtar respublikada qadınların özünüməşğulluğunun təmin edilməsi sahəsində xeyli iş görülüb. "Ənənəni qoruyaq, evdə xalça toxuyaq!" adlı sosialyönümlü haqqı ödənilən ictimai işin təşkili bu tədbirlərin davamıdır. Belə ki, bəhs olunan dövrdə 11 nəfər xalça toxuyanla əmək müqaviləsi bağlanılıb, müvafiq ölçüdə xalçaların toxunması üçün onlar lazımi avadanlıq və alətlərlə, həmçinin materiallarla təmin ediliblər.

Bu dövr ərzində qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək münasibətlərinin rəsmiləşdirilməsi, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsi ilə bağlı monitorinqlərin aparılmasına da diqqət artırılıb. Bu monitorinqlər zamanı 408 sahibkarlıq obyektində 199 əmək münasibətinin rəsmiləşdirilməsinə, 1053 əmək müqaviləsində isə əməkhaqqının real göstərilməsinə nail olunub.

İşəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasının, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsinin vəziyyəti ilə bağlı, ümumilikdə, 69 obyektdə nəzarət həyata keçirilib. Nəzarət zamanı fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 155 işçi həmin vasitələrlə yerində təmin edilib, 78 işçi isə müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılıb.

Məlumatda deyilir ki, istehsalatda yüngül xəsarətalma ilə nəticələnən hadisələrin təkrarlanmaması məqsədilə işəgötürənlərə metodik köməklik göstərilib və istehsalatda baş verən altı hadisənin müvafiq komissiya tərəfindən təhqiqatı aparılıb. Əməyin mühafizəsi üzrə tələblərin pozulmasına görə inzibati xəta haqqında tərtib edilmiş protokola uyğun olaraq 4 vəzifəli şəxsin 3700 manat məbləğində cərimə olunmasına dair qərar qəbul edilib.

Bu dövrdə "Ən fəal işəgötürən" nominasiyası üzrə müsabiqə təşkil edilib və qaliblər mükafatlandırılıb.

Dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrası davam etdirilir.

**Xəbərlər şöbəsi**

*Ötən əsrin 80-ci illərinin sonu iqtisadi tənəzzül, siyasi böhran, anarxiya, xaos, özbaşınalıq dövrü kimi tarixə düşüb. Naxçıvan şəhərini ayrı-ayrı məhəllələr üzrə nüfuz dairəsinə bölən qoluzorlular peyda olmuşdu. Vaxtaşırı olaraq şəhərin müxtəlif yerlərində onları tanımayan və ya tanıyıb itaət etməyənlərlə tanışlıq xarakterli “profilaktiki tədbirlər” həyata keçirir, insanların həyatı üçün təhlükə yaradan şoular göstərirdilər. Heç yadımdan çıxmır. Dəmiryol vağzalına gedən yolda avtomobilləri saxladıb sürücüləri və sərnişinləri əlləri boynunun dalında üzüüstə asfalta uzanmağa əmr edirdilər. Bir dəfə biz də belə bir hadisə ilə qarşılaşmışdıq.*

# Anarxiya, xaos, özbaşınalıq dövründən əmin-amanlığa və sabitliyə

## *Təhlükəsiz, cinayətsiz region*




– Bu nə məsələdi, – deyən dostum üzümə baxdı.

–Nə bilim, – deyib çiyinlərimi çəkməklə kifayətləndim.

Bizim ayrı yolumuz yox idi. Maşında oturub növbəmizi gözləyirdik. Baxdıq ki, əlində avtomat olan iki nəfər maşınımıza yaxınlaşdı.

– Nə gözlərini döyürsən, maşından düş. Əllərini boynunun dalına qoy, üzüüstə uzan yerə.

Vəziyyəti görən dostum artıq əmr gözləmədən “ümumi qayda”nı icra edirdi. Elə bu vaxt iki ədəd qara rəngli “Jiquli” dayandı. Amma necə dayandı. Əyləcin səsi, yalan olmasın, şəhərin o başında eşidildi. Təkərlərindən qalxan tüstü ilə yolkəsənlərin siqaretinin tüstüsü birbirinə qarışdı. Döndülər ki, dostumun yadından çıxıb əlləri boynunun dalında qalıb. Qara maşının sahibi yanaşı dayandığım Qasıma baxıb: – Əllərin niyə boynunun dalında qalıb? – deyə soruşdu və qəşş etdi. Yerə uzananlara baxıb, – durun çıxın gedin, komandası verib, elə həmin qara maşınlara oturub getdilər. Dostumla şükür etdik ki, kefləri kökəldi, bizi üzüüstə asfalta uzatmadılar.

– Qardaş, onlar dəmiryol vağzalı tərəfə getdilər. Dön Xan sarayı tərəfdən gedək. Bəlkə bu tərəf sakitlik olar, – deyən dostum israr etdi.

Döndüm.

– Biz axır ki, vağzalın yanında olan çörək zavoduna gedib çörək almaq üçün növbə tutmalıyıq, ya yox? – deyib dostuma baxdım. Eybi yoxdur, – dedi. Biz bu tərəfdən gedənədək yəqin ki, sakitlik yaranar.

Amma sən saydığını say, gör fələk nə sayır. Elə Xan sarayının yanından təzəcə enirdik, baxdıq ki, yuxarıdakı vəziyyət elə doğrudan da şükürlü imiş. Burada əməllibaşlı müharibə gedir. Bir qrup silahlı dəstə bir-birinə avtomat silahlardan atəş açır. Atılan güllələrin qurbanı olmamaq üçün fürsət gözlədik. Elə bu vaxt baxdıq ki, “Xan sarayı döyüş bölgəsinə” hər iki tərəfdən BTR-lər, üstündə də o dövrün tanınmış simalarından olan silahlı dəstə gəlir. Amma başa düşmədik. Gedən zirehli texnika və canlı qüvvə yol kənarındakı silahlı dəstə, yoxsa ağaclıqdakı silahlı dəstə tərəfindən bu müharibəyə qatılacaq. Sonralar həmin ərazidən keçərkən onu da gördük ki, bütün müharibələrdə olduğu kimi, bu “müharibə”nin də sonu dağıntı ilə nəticələnmiş, ağaclıqda yerləşən “qərargah binası” yandırılmışdı. Biz imkan yaranan kimi aradan çıxdıq. Əvvəlki yolumuzla getdik çörək zavoduna. Burda sakitlik idi. Çörək növbəsinə dayandıq. O dövrü xatırlayanlar yaxşı bilir. Bu 3-4 nəfərlik növbə deyil, 8-10 saat çəkən növbə idi. Amma qışın 35-40 dərəcə şaxtasında belə, bu vəziyyətə dözürdük, ta ki, 3 çörəyi gözlərini əlimizə və qapıya dikən körpə uşaqlara çatdıraq. Uzun-uzadı növbədə dayanmağın əzab-əziyyəti bir tərəfə, burada yaranan xoşagəlməz hadisələr də insanları mənən sarsıdırdı. Qolları və sinəsi əcaib şəkillərlə bəzədilmiş “xüsusi imtiyazlı” şəxslər növbəsiz zavoda girir, bəzən də qucaqlarındakı çörəyi növbəyə duranların başına atır, qapış-qapış oyununa baxıb gülüşürdülər. Heç yadımdan çıxmır, onların bu hərəkətlərinə etiraz edən bir gənci axşamdan yağan yağışın yaratdığı gölməçədə təpiklədilər. Gənc isə zərbələrin ağrısına dözür, aldığı çörəkləri qucağında bərk-bərk sıxırdı ki, palçığa batmasın. Heç olmasa, həmin günü ailəsi naümid qalmasın. İnsanları 3 çörəklə çəkilən imtahandan daha çox bu haqsızlıq, özbaşınalıq əzirdi.

Sabah sübh tezdəndən qalxıb çörək növbəsinə tələsən bina sakinləri yeni sürprizlərlə qarşılaşırdı. Evində daimi suyu olması üçün hər bir ailə zirzəmidə su nasosu yerləşdirmişdi ki, elektrik enerjisi veriləndə binanın damına qoyduqları çənə su vura bilsin. Elektrik enerjisi verilən zaman nasosu işə salanda baxırdıq ki, su gəlmir. Zirzəmiyə enib görürdük ki, 20 millimetrlik armaturla qaynaq elətdirib hazırladığımız qəfəsi kəsib su nasosunu aparıblar.

Binanın həyətində dayanan avtomobillərin sahibləri daha çox əziyyət çəkirdilər. Xüsusilə Nazim müəllimin “Jiquli”si hər ay təkərlərin üstündə durmaq əvəzinə, Bakı kubiklərinin üstündə dayanır, maqnitofonu isə başqa maşınlarda oxuyurdu. İnsafən onu da deyim ki, ehtiyat hissələrinə dəyib toxunmurdular. Çünki maşın əlverişsiz yerdə dayandığından, yəni binanın həyətinə min göz baxır, – deyib tez-bazar “əməliyyat” aparırdılar. Vaxt alan ehtiyat hissələrinin sökülməsi isə dəmir qarajlarda aparılırdı.

Qonşu Valeh arxayın olur ki, “Jiquli”si dəmir qarajdadır, qapısında da bir kiloluq qıfıl. Deməli, olar ki, hər gün qıfıla nəzarət edir. Baxır ki, hər şey qaydasındadır. Yəni qıfıla toxunulmayıb. Benzin qıtlığı üzündən maşını işlətməyən Valeh bir müddət sonra dəmir qarajin qapısını açır ki, maşının bir banı qalıb. Oğrular bağçadan tunel qazıb giriblər qaraja. Bu hadisə digər avtomobil sahiblərinə bir dərs oldu. Dəmir qarajların döşəməsini armaturla qaynaq etdirib beton tökdük. Amma gördüyümüz təhlükəsizlik tədbirlərinə baxmayaraq, hər gün qarajı açıb maşına baş çəkmək əsas şərt idi. Hər kəs evinin giriş qapısını dəmirdən, özü də ikiqat dəmirdən yığdırıb 2-3 kilid saldırır, pəncərələri dəmir qoruyucularla qaynaq etdirirdi. Bu, dövrün tələbi idi.

“Şərq qapısı” qəzetinin 29 fevral 1992-ci il tarixli nömrəsində “Oğrular ifşa olunur” başlıqlı məqalədə oxuyuruq: “Çətin dövrümüzü yaşayırıq. Bir tərəfdən muxtar respublikamızın uzun müddət blokada vəziyyətində olması, iqtisadi çətinliklərin son həddə çatması, adamların yaşayışının həddən artıq pisləşməsi, bir tərəfdən də belə böhranlı vəziyyətdən öz çirkin əməlləri üçün istifadə edən möhtəkirlərin, alverçilərin azğınlaşması, oğruların fəallaşması haqlı olaraq əhalini ciddi narahat edir...

Qeyd etmək lazımdır ki, daxili işlər orqanları tərəfindən oğurluqların qarşısını almaq məqsədilə aparılmış hər cür profilaktik tədbirlərə baxmayaraq, iqtisadi çətinliklər artdıqca oğurluq hadisələri də, təəssüf ki, çoxalmaqda davam edir. Təkcə fevral ayının birinci yarısında qeydə alınmış 17 cinayət hadisəsindən 8-i oğurluq cinayəti olmuşdur. Bu çirkin cinayət hadisələrinin qarşısının alınmasında və oğruların vaxtında ifşa olunmasında əhalinin köməyinə ehtiyac vardır”.

Qəzetin 8 avqust 1992-ci il tarixli nömrəsində dərc olunmuş “Cinayət cəzasız qalmamalıdır” başlıqlı yazıda qeyd olunub ki, “1992-ci ilin 6 ayında Naxçıvan Muxtar Respublikası xalq məhkəmələrinin icraatına 148 cinayət işi daxil olmuşdur. Mahiyyəti üzrə baxılıb hökm çıxarılan 93 cinayət işi üzrə 140 nəfər məhkum olunmuşdur”.

Zaman keçdi. İnsanlara doğru yol göstərildi. Cinayət hadisəsini doğuran səbəblər aradan qaldırıldı, əhalinin məşğulluğu təmin edildi, insanların maddi rifah halı yaxşılaşdırıldı. Hər kəs gücü çatdığı, bacardığı işin, peşənin dalınca getdi. Cinayətə meyilli insanlar tənbeh edildi. Bəli, həbsxanaya salınmadı, tənbeh edildi. Belə insanların törədəcəyi cinayətin ağırlığı ilə bağlı geniş izahat işlərinə başlanıldı, hüquqi maarifləndirici söhbətlər aparıldı. Nəticədə, həmin şəxs azadlıqdan məhrum olmaqdan, onun ailə üzvləri başsız qalmaqdan, cəmiyyətə yük olmaqdan, ictimaiyyət isə üzləşə biləcəyi narahatçılıqdan xilas oldu. Digər sahələrdə olduğu kimi, cinayətkarlığa qarşı mübarizədə tətbiq olunan Naxçıvan modeli, yəni cinayət baş verəndən sonra yox, cinayət baş verməmişdən əvvəl həyata keçirilən profilaktik tədbirlər öz bəhrəsini verdi. 1994-cü ildə 774 cinayət hadisəsi qeydə alınan muxtar respublikamızda bu göstərici ötən il cəmi 21 olub. Onu da qeyd edək ki, 1993-cü ildə qəsdən adamöldürmə ilə bağlı 18, qəsdən adam öldürməyə cəhdlə bağlı 4, qəsdən sağlamlığa zərər vurmaqla bağlı 20 cinayət hadisəsi qeydə alınmışdı. 1992-ci ildə oğurluqla bağlı 301 cinayət işi başlanmışdısa, cari ilin ötən dövründə bu qəbildən cəmi 3 hadisə baş verib. 1994-cü ildə narkotik maddələrlə bağlı 104 hadisə qeydə alınmışdısa, 2016-cı ilin 9 ayında cəmi 3 fakt aşkar edilib.

Oxunuşuna və yazılışına bir neçə dəqiqəlik zaman sərf etdiyimiz bu bir neçə cümləlik statistik göstəricinin reallaşması üçün nə az, nə çox, 20 ildən artıq ağır zəhmət tələb edən gərgin əmək sərf olunub. Bir vaxtlar səksəkəli günlərini yaşayan Naxçıvan indi təhlükəsiz şəhərə, cinayətsiz regiona çevrilib. Hərtərəfli biliyə malik gənc nəslin yetişdirilməsinə, onların asudə vaxtlarının səmərəli təşkilinə hər cür şərait yaradılıb, tikilib istifadəyə verilən müasirtipli məktəblər, idman zalları, idman kompleksləri öz bəhrəsini verib. 1994-cü ildə yetkinlik yaşına çatmayanlar tərəfindən 40 cinayət hadisəsi törədilən muxtar respublikamızda son illər bu qəbildən heç bir cinayət hadisəsi qeydə alınmayıb. Küçələrdə veyilveyil gəzən, yetənə yetən, yetməyənə də bir daş atan, hüquq-mühafizə orqanları əməkdaşlarının dili ilə desək, xuliqanlıq edən yetkinlik yaşına çatmayan uşaqlar, yeniyetmələr nəinki 500-700 bal toplayan məzunlara, sorağı ölkənin və dünyanın ali təhsil ocaqlarından gələn, beynəlxalq yarışlarda bayrağımızı dalğalandıran, himnimizi səsləndirən qürurverici gəncliyə çevrilib.

Amma keçmişini unudanın gələcəyi olmaz, – deyiblər. Biz də zaman-zaman keçmişə müraciət edir, bu gün əmin-amanlıq, sabitlik şəraitində yaşayan gənc nəslə o dövrün acı xatirələrini yaşatmaq yox, nəticə çıxarmaq üçün çatdırmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, bugünkü əmin-amanlığa, sabitliyə gedən yolun heç də asan olmadığını bildirməyə çalışırıq. Çalışırıq ona görə ki, dövlətin, millətin gələcəyi olan gənclik o dövrü yenidən yaşamasın, reallıqları yaşamağı, yaşatmağı bacaran əsl vətəndaş olsun. Elə buradaca bir türk iş adamı ilə ötən il söhbətimizdə danışdığı maraqlı bir hadisəni oxucularımıza çatdırmaq istəyirəm:

– Naxçıvana yeni gəlmişdim. Kirayə qaldığımız mənzildə iki nəfər yaşayırdıq. İşimlə əlaqədar mən evdən sübh tezdən çıxmalı oldum. Onu oyadıb çıxarkən qapını bağlamağı unutma, – dedim. Axşam evə dönərkən, baxdım ki, qapı açıqdır.

Vay, evə oğru girib, – deyə fikirləşdim. Qapını açdım, baxdım ki, ayaqqabı izi yoxdu. Adətən, oğru çağırılmamış qonaq olduğundan evi ayaqqabı ilə dolanıb axtarış aparır. Təbii ki, əvvəlcə pulları qoyduğum yerə baxdım. Yerində idi. Hər şey necə səliqə ilə düzülmüşdüsə, elə idi. Bu vaxt iş yoldaşım da gəldi. Etiraf etdi ki, qapını bağlamağı unudub. Amma o da həyəcanlı idi.

– Bəs sən niyə həyəcanlısan? Özün deyirsən ki, qapını bağlamağı unutmusan. Bu oğru işi deyil, – deyə soruşdum.

– Yox, qardaş, mən ona inana bilmirəm, necə olur ki, qapı açıq ola-ola evə oğru girmir. Heyrət, bu məmləkətə!

Bəli, heyrət ediləcək, qibtə olunacaq bir məmləkətdə yaşamaqdan qürur duyur, iftixar hissi keçiririk.

Bu günlərdə muxtar respublikamıza səfər edən bir xarici turistlə tanış oldum. Doğma Naxçıvanımızı gəzdik. Qədimliyi saxlanılmaqla yeniləşən, müasirləşən Naxçıvanda bərpa olunan tarixi abidələri, park və xiyabanları, müasir memarlıq üslubu ilə gözoxşayan binaları seyr edən qonaq birinci, ikinci mərtəbələrdəki mənzilləri göstərib təəccüblə soruşdu:

– Pəncərələrə niyə dəmir qoruyucular qoymursunuz?

– Biz o dövrü yaşadıq. İndi buna, sadəcə, ehtiyac yoxdur. Həm insanların şüurunda yenilik olub, həm də vətəndaşların rahat yaşaması üçün hüquq-mühafizə orqanları nə lazımdırsa edib. Narahatçılığa heç bir əsas yoxdur, – dedim.

Elə bu an qonağın mobil telefonuna gələn zəng söhbətimizə ara verdi:

– Ata, haradasan, narahat olduq, bir hadisə, çətinlik yoxdur ki?

– Yox, ay qızım, bura Naxçıvandır. Heç bir narahatçılıq yoxdur. Yenicə tanış olduğum dostumla şəhəri gəzirik. Çox sakit və gözəl şəhərdir, – deyib xudahafizləşdi.

Xeyli fikirləşdi. Sonra da üzümə baxıb:

– Cinayət və terror üzündən biz hər gün işə gedərkən ailə üzvlərimizlə halallaşırıq. Axşam evə sağ-salamat dönəcəyimiz sual altında olur. Bu hal tək bir gün, iki gün üçün deyil, ömrümüzə hakim kəsilən bir kabusdur. Amma Naxçıvanda gördüklərim məni valeh etdi. Siz xoşbəxt adamlarsınız. Ona görə ki, bu əminamanlığı, sabitliyi yaşadanlarla bir zamanda yaşayırsınız.

**Kərəm HƏSƏNOV**

***Yazı “Naxçıvan: dünən və bu gün” yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür***

Təbii sərvətlərimiz

# Dağların bəyaz sərvəti – Naxçıvan duzu

## “Büllur saray”dan reportaj

*Təbiət bu torpağa bir-birindən qiymətli, əvəzsiz nemətlər bəxş edib. Onlardan biri də duzdur. Bu diyarda duz çıxarılması insanların əsas məşğuliyyətlərindən biri olub. Araşdırmalar sübut edib ki, hələ Daş dövründən başlayaraq Naxçıvanda üstü qırmızı haşiyəli dağların altından ibtidai üsullarla duz çıxarılıb, ondan məişətdə, təsərrüfatda geniş istifadə edilib. Sonrakı dövrlərdə mədənlərdən çıxarılan duzun miqdarı artırılıb, bu nemət üçün dünyanın müxtəlif ölkələrindən Naxçıvana dəvə karvanları gəlib, tacirlər duz ticarətindən böyük var-dövlət əldə ediblər. Beləliklə, dağların bəyaz sərvəti bu torpağın insanlarının rifahında önəmli rol oynayıb.*





Duzu çıxarmaq da, onu emal etmək də ağır işdir. Mətbəxdə duz qurtaranda mağazadan onu çox cüzi bir qiymətə əldə edə bilirik və təsəvvürümüzə belə gətirmirik ki, duzun süfrəmizə çatması üçün nə qədər insan zəhməti tələb olunur, nə qədər alın təri tökülür. Elə bir çoxları kimi mənim də mədənə gedənə qədər duzun hasilə gəlməsi haqqında təsəvvürüm çox az idi. Ancaq ötən günlərdə şaxtaya girdikdən, orada mədən ustaları ilə söhbət etdikdən sonra duz istehsalına nə qədər böyük əmək sərf edildiyinin, alın təri töküldüyünün və zəhmət çəkildiyinin şahidi oldum.

... Şaxtanın girişində məni mədən işçilərindən Nurəddin Məmmədov qarşılayır və bələdçilik edir. İçəri girəndə duz mədəninin özünəməxsus qoxusu ciyərlərimizə dolur və hava da hiss etdirir ki, biz artıq sonu görünməyən yerin təkindəyik. Biz hərəkət etdikcə narın duz dənələri ayaq altında xışıldamağa başlayır. Tavandan asılan, bayırda əsən xəfif mehin təsirilə aram-aram yellənən elektrik lampasının işığında duz layları işığa kölgənin rəqsinin təsirindən daha əsrarəngiz, daha sirli, sehrli görünürdü. Bir az önə doğru getdikdən sonra mədənin dayaqlarla möhkəmləndirilmiş bölümü qarşımıza çıxır. Xüsusi qaydada ilə tavana qədər düzülmüş ağac şpalları görəndə istər-istəməz bu dayaqların ağır tavana nə qədər dözümlü ola biləcəyini düşünüb, sözün düzü, bir az ehtiyat edirəm. Nurəddin usta dayaqlara çox diqqətlə baxdığımı görüb, bir az çəkindiyimi deyəsən hiss etmişdi:

– Çəkinməyə ehtiyac yoxdur. Bu şpallar və dayaqlar xüsusi növ ağaclardan düzəldilib. Çoxusu qara şamdır. Bu ağaclar rütubətə, nəmə və digər kənar təsirlərə qarşı çox davamlı olur. Onlar uçqun təhlükəsinin qarşısını almaq üçündür. Başımızın üstündəki laylardan hər hansı biri qopsa, bu qurğular onun yerə düşməsinin və hər hansı bir zərər verməsinin qarşısını alar. Onlar olmasa, şaxta insan həyatı üçün çox təhlükəli ola bilər. Çünki parçaların kənarları balta ağzı kimi iti olur. Ona görə də bu qurğuları quranlar işi çox məsuliyyətlə görür, bir balaca diqqətsizliyin nə ilə nəticələnəcəyini yaxşı bilirlər. Dünyanın başqa ölkələrindəki analoji mədənlərdən fərqli olaraq, bizdə məhsuldarlıqdan daha çox təhlükəsizliyə, insan amilinə böyük önəm verilir. Çünki söhbət insan həyatından, hər hansı bir ailənin taleyindən gedir.

Onun bu sahədə çox təcrübəli olduğunu görüb: – Neçə ildir burada işləyirsiz? – deyə soruşuram. Cavab çox qısa olur: – 1975-ci ildən.

Bu, məni çox heyrətləndirir. Nə az, nə çox. Düz 41 il. Görəsən, o, bu illər ərzində öz peşəsini dəyişməyi düşünübmü?

Onu bu sual qarşısında qoyanda səmimiyyətlə gülümsəyir. Deyir ki, artıq bu mədən, duz şaxtaları ona dünyanın istənilən yerindən doğmadır, əzizdir. Uzun illər elə alışıb ki, bir-iki gün şaxtadan kənarda qalanda özünü yaxşı hiss etmir.

Beləcə, söhbət edə-edə şaxtanın sonuna doğru irəliləyirik. Bir nəfər “Ehtiyatlı ol. Ayağın kiçik vaqonları çəkən kanatlara ilişə bilər”, – deyib məni kənara çəkir. Minnətdarlıq edib onunla tanış oluram. Mədənin təhlükəsizlik mühəndisi Zəfail İsmayılovdur. O, doqquz ildir ki, bu mədəndə işləyir. Şaxtanın hər qarışına yaxşı bələddir. Mənə qazma aparılan yerə qədər bələdçilik etməyi öz öhdəsinə götürür. Bir az getdikdən sonra mədən işçilərinin kənara çıxmadan istirahət edə bilmələri üçün yaradılan guşəyə çıxırıq. Burada, yerin altında yerin üstündəki bəzi çayxana və yeməkxanalara nümunə ola biləcək səliqə-sahman yaradılıb, stol və stullar qoyulub. Bir az öndə isə hər hansı bir qəza halında işçilərin daldalana biləcəyi guşə var. Zəfail usta deyir ki, şükür, hələ ki, bu guşədən istifadə etməmişik, ancaq ehtiyatı əldən vermək olmaz. Burada hər şey mövcud təlimatlara uyğun olmalıdır.

Çox keçmir ki, qazma aparılan yerə yaxınlaşırıq. Qazma ustası Ceyhun Hüseynov elektriklə işləyən ağır alətlə divarları deşib duz laylarını oradan qoparır, yerə düşən böyük layları parçalayıb daşınmağa hazır hala gətirir. Bu işi görmək böyük fiziki güc və dözüm tələb edir. Ancaq uzun müddətdir, bu işlə məşğul olduğundan ağır linglərlə işləmək Ceyhun üçün çətin deyil. O deyir ki, əvvəlcə divarlar deşilir, oraya müəyyən miqdarda partlayıcı qoyulur. Sonra uzaq məsafədən partladılır. Partlamadan sonra şaxtanın tavanında əsas laydan aralanmış duz qatları ola bilər. Linglərlə sonradan qopa biləcək qatları yoxlayıb yerə salırıq. Məhz bundan sonra şaxtada təhlükəsiz işləmək olar.

Mədən işinə nə az, nə çox, ömrünün düz 36 ilini sərf etmiş Fərrux Orucov deyir ki, şaxtaçı işi çətin olduğu kimi şərəfli bir peşədir. Duz çıxarılan əraziyə çatmaq üçün yerin altı ilə 1500 metr getməli olursan. Mədənçi işinə fiziki gücdən əlavə, güclü xarakter də lazımdır. Bunlar olmasa, burada işləmək çətin olar. Mədəndən çıxarılan duz kollektiv əməyin məhsuludur. Əgər 10 nəfər bir növbədə şaxtaya giribsə, demək, orada hamı bir-birinə hər çətinlikdə kömək olmalı, ağır yükün altına çiynini verməlidir. Fərdi düşünən insan şaxtaçı ola bilməz.

Bələdçim Nurəddin Məmmədov deyir ki, burada 4 şaxta fəaliyyətdə olub. Hazırda onlardan birində Duzdağ Fizioterapiya Mərkəzi fəaliyyət göstərir, əvvəllər insanların məşğuliyyətinə, sosial rifahına xidmət edən bu şaxta indi dünyanın dörd bir yerindən gələn adamlara sağlamlıq bəxş edir. Hazırda 1 nömrəli şaxtadan duz çıxarılır. Nə vaxtsa bu şaxta da bundan əvvəlki kimi şəfa ocağına çevriləcək. Sevinirəm ki, bunda bu günün şaxtaçılarının da əməyi olacaq, onlar hörmətlə yad ediləcəklər.

Mədəndən çıxarkən şaxtada işin gedişatı ilə maraqlanan “Naxçıvan Duz İstehsalı” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Anar Əsədullayevlə qarşılaşırıq. O, bu mədənlərin qısa tarixçəsi haqda danışaraq deyir ki, qədimdə primitiv üsulla çıxarılan duz məişətdə istifadə olunmaqla yanaşı, mübadilə vasitəsi kimi Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılıb. Duzdağ yatağından sənaye üsulu ilə duz çıxarılmasına ilk dəfə 1927-ci ildə başlanılıb. Sovet dönəmində bu sənaye müəssisəsində istehsal edilən daşduz ittifaq respublikalarına göndərilib. 1988-ci ildən sonra bu sənaye müəssisəsinin fəaliyyəti tamamilə dayanıb, nəticədə, müəssisənin əmlakı dağıdılıb, təcrübəli mədənçilər işsiz qalıblar. Lakin ulu öndərimizin hakimiyyətə qayıdışından sonrakı dövrdə yeraltı və yerüstü sərvətlərlə zəngin olan muxtar respublikamızın təbii resurslarından, eləcə də duz mədənlərindən səmərəli istifadə olunub. Duz mədənində tikinti-quraşdırma, yenidənqurma, təmir-bərpa, abadlıq işləri aparılıb, istismarı dayanmış və uzunluğu 1700 metr olan 1 nömrəli şaxta, eləcə də mövcud 2 duz emalı sexi müasir texnoloji avadanlıqlarla təmin edilib, müəssisə yenidən qurularaq istifadəyə verilib. 2005-ci ildə isə istehsal gücü gündə 7 və 20 ton olan 2 yeni duz emalı sahəsi tikilərək istehsala başlanıb. Burada bütün istehsal prosesi avtomatlaşdırılıb, paketləyici avadanlıq quraşdırılıb. 2010-cu ildə 3 ədəd rəqəmsal yodvuran, 2 ədəd tarixvuran və 1 ədəd duzpaketləyən avadanlıq alınıb gətirilib. Beləliklə, əl əməyi yüngülləşdirilib, yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, istehsal edilən məhsulun vaxtında sifarişçilərin ünvanlarına çatdırılması da təmin edilib. İstifadəyə verilən yeni istehsal sahələri Naxçıvanın duz yataqlarının istismarı tarixində qurulan ilk müasir istehsal sahələridir. Bu gün duz mədənində yeni texnoloji avadanlıqlarla təmin edilmiş 4 duz emalı sahəsi fəaliyyət göstərir, istehsal edilən məhsul “Duzdağ” əmtəə nişanı ilə satışa çıxarılır. Müəssisənin ixrac potensialı ildən-ildə genişləndirilir. Xammalın çıxarılmasından satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal olunan duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Burada laboratoriya da fəaliyyət göstərir. Çalışırıq ki, keyfiyyətli məhsul istehsal edib istehlakçılara çatdıraq.



**...Hələ qədimdən insanlar duzun mistik gücünə, müsbət enerjisinə inanırdılar. Qədim polyak torpaqlarında, Efiopiyada (XIX əsrə qədər) duz tədavül vasitəsi kimi istifadə olunub. Səyyah Marko Polo xatirələrində yazır ki, Çində XIII əsrdə duzdan pullar hazırlanırdı. Rusiyada əziz qonaqları duz-çörək ilə qarşılayırlar, duzun tökülməsi pis əlamət sayılır. Şərq ölkələrində, o cümlədən də türkdilli xalqlarda da duza böyük dəyər verilir. Xalqımız tərəfindən də duz elin bərəkəti sayılan çörəyə bərabər tutulur, dost haqqında söhbət açılanda onunla “duz-çörək” kəsmişik deyilir. İnanclardan biri də insanların yaşadıqları evdə daşduz parçası saxlamalarıdır. Duz töküləndə evdə söz-söhbət olacağı ilə də bağlı inanclar mövcuddur. Sonuncu inanc, bəlkə də, ona görə yaranıb ki, duz ən əziz nemət kimi qorunsun, mühafizə edilsin. Dağlarımızın altından, bəyaz büllur saraylardan çıxarılan duzun qədir-qiymətini bilməli, sərvətimizin daha bir neçə min illərboyu xalqın rifahına xidmət etməsi üçün çalışmalıyıq.**

Səbuhi HÜSEYNOV

# Yeni istehsal sahəsi yerli məhsul, həm də yeni iş yerləri deməkdir

***Daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsullar istehsal edən müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən “Uşaq Bezi Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisənin direktoru İbrahim Cəlilov bizimlə söhbətində qeyd etdi ki, özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnib. Xammal və hazır məhsulların ağırtonnajlı yük avtomobilləri ilə daşınması üçün daha əlverişli yerdə – Naxçıvan dairəvi avtomobil yolunun kənarında müəssisə üçün ayrılmış ərazidə 2 istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün bölmələr yaradılıb, ayrı-ayrı otaqları istifadəyə verilib.***

Layihəyə uyğun olaraq, tibbi spirtin qablaşdırılması və uşaq bezi istehsalı sahələrində İran İslam və Çin Xalq respublikalarından alınmış, istehsal gücü saatda 1000 ədəd şərti butulka tibbi spirt, dəqiqədə 350 ədəd uşaq bezi olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilən müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesi avtomatlaşdırılıb. Müəssisədə istehsal prosesi konveyer üsulu ilə təşkil olunub, keyfiyyətli məhsul istehsalı üçün əlverişli şərait yaradılıb. Həmçinin müəssisədə mərkəzləşdirilmiş nəzarət sistemi qurulub ki, bu da istehsal prosesi zamanı yaranan nasazlıqların vaxtında aradan qaldırılmasına imkan verir.

Türkiyə, Pakistan, İran, Almaniya və Koreyada fəaliyyət göstərən bu sahə üzrə qabaqcıl təcrübəyə malik ayrı-ayrı şirkətlərdən xammal idxalına başlanılıb. Müəssisənin yaradılması və müasir texnoloji avadanlıqların alınıb quraşdırılmasına, ümumilikdə, 1 milyon 820 min manat vəsait sərf olunub ki, bunun da 700 min manatı Sahibkarlığa Kömək Fondundan, 1 milyon 120 min manatı isə müəssisənin daxili imkanları hesabına ödənilib.

İllik istehsal gücü 2 milyon 496 min ədəd şərti butulka tibbi spirt və 52 milyon 416 min ədəd uşaq bezi olan bu müəssisə muxtar respublikamızda yeganə müəssisədir. İlkin hesablamalara görə, muxtar respublikamızın tibbi spirtə olan illik tələbatı 360 min ədəd şərti butulka, uşaq bezinə olan tələbatı isə 22 milyon ədəddir. Göründüyü kimi, yeni müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatını tamamilə ödəyir, ixrac imkanları yaradır.



Müəssisədə istehsal edilən uşaq bezi və tibbi spirtin yerli məhsul olaraq tanıdılması və daxili bazarın tələbatının öyrənilməsi məqsədilə tədbirlər həyata keçirilib. Tibbi spirt 100 qramlıq şüşə taralarda, uşaq bezi isə 6 ölçüdə olmaqla müxtəliftutumlu, nəfis tərtibatla bəzədilmiş paketlərdə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydə alınmış “Pambıq” əmtəə nişanı ilə satışa çıxarılır. Əvvəllər eyniadlı məhsullar muxtar respublikamıza xarici ölkələrdən idxal olunub əlavə daşınma xərci çəkilirdisə, bu müəssisənin fəaliyyətə başlaması ilə həmin problemlər aradan qaldırılıb, istehlakçıların daha münasib qiymətə keyfiyyətli yerli məhsullarla təmin olunmasına əlverişli şərait yaradılıb.

Daxili bazarın tələbatına uyğun yeni çeşiddə məhsul istehsalı diqqət mərkəzində saxlanılıb. Müəssisədə Türkiyədən alınmış istehsal gücü saatda 1200-1500 ədəd şərti butulka olan tam avtomatlaşdırılmış istehsal xətti quraşdırılaraq pavidion yod və hidrogen peroksid istehsalına başlanılıb. Pavidion yod 260 milliqramdan 1 litrədək, hidrogen peroksid isə 60 milliqramlıq taralarda satışa çıxarılır.

Onu da qeyd edək ki, “Uşaq Bezi Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal olunan məhsulların yaxın vaxtlarda ölkəmizin paytaxtı Bakı şəhərində satışa çıxarılması və İran İslam Respublikasına ixrac olunması nəzərdə tutulur.

Ayrı-ayrı əczaxanalarda satışa çıxarılan bu yerli məhsullara olan münasibəti öyrəndik. Həkim-terapevt Vəliqulu Həsənov dedi:

– Əvvəllər xaricdən idxal olunan tibbi spirtin və körpələrin istifadə etdiyi uşaq bezinin hansı şəraitdə istehsal edildiyini və bu məhsulların keyfiyyətinə necə nəzarət olunduğunu bilmir, istehlakçıların hər hansı bir dəri xəstəliyinə tutulacağından narahatçılıq keçirirdik. Amma Naxçıvan şəhərində Uşaq Bezi Fabrikinin fəaliyyətə başlaması və burada tibbi spirtin, pavidion yodun və hidrogen peroksidin qablaşdırılması ilə bu narahatçılığa son qoyuldu.

Nərminə Babayeva, Naxçıvan şəhər sakini:

– Körpə uşaqlarım var. Naxçıvanda istehsal edilən uşaq bezinin daimi alıcısıyam. Xaricdən istehsal olunan eyniadlı məhsullardan həm ucuz, həm də keyfiyyətlidir. Bu yerli məhsullar ailə büdcəmizə qənaət etməyə imkan verir.

Mahirə Rzayeva, Naxçıvan şəhər sakini:

– Yerli istehsala önəm veririk. Çünki həmin məhsulların keyfiyyətinə ciddi nəzarət olunduğuna inanırıq.

K.HƏSƏNOV

# 134-cü teatr mövsümünün açılışı olub





*Oktyabrın 5-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı Nəriman Nərimanovun “Nadir şah” tarixi faciəsi əsasında hazırlanmış tamaşa ilə 134-cü teatr mövsümünə başlayıb.*

Tamaşadan əvvəl Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natavan Qədimova çıxış edərək Naxçıvan teatrının keçdiyi inkişaf yolundan danışıb, bu sənət ocağının tamaşaçıların maarifləndirilməsindəki xidmətlərindən söhbət açıb.

Qeyd olunub ki, Naxçıvan teatrı həmişə Azərbaycan teatr hərəkatının önündə gedərək tamaşaçıların mənəvi və estetik tərbiyəsində mühüm rol oynayıb, insanları işıqlı amallar uğrunda səfərbər edə bilib, milli dirçəliş və oyanışın carçısına çevrilib. Teatr heç zaman dar sənət çərçivəsində qalmayıb; böyük bəşəri və milli məsələləri səhnəyə gətirməklə Naxçıvan teatrı daim tamaşaçı sevgisi qazanıb. Sənət məbədinin tarixinə nəzər salarkən aydın görünür ki, dramaturgiyamızın elə bir görkəmli sənətkarı yoxdur ki, onların əsərləri teatrın səhnəsində tamaşaya qoyulmasın.

Azərbaycan, eləcə də Naxçıvan teatrının inkişaf tarixindən bəhs edən nazir vurğulayıb ki, teatrlarımızın yaradıcılıq axtarışlarının genişləndirilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ulu öndər Heydər Əliyevin diqqət və qayğısı ilə ötən əsrin 70-ci illərindən etibarən Naxçıvan teatrı davamlı inkişaf yoluna çıxıb, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi təbliğ edən tamaşalara daha çox diqqət yetirməyə başlayıb. Müstəqillik illərində də teatrımız daim dövlət qayğısı ilə əhatə olunub, teatrın maddi-texniki bazası gücləndirilib, yaradıcılıq imkanları genişləndirilib.

“Teatrlarımıza göstərilən dövlət qayğısı bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir”, – deyən Natavan Qədimova bildirib ki, 2006-cı ildə qəbul olunmuş “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, ölkə başçısının “Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında” 2007-ci il 19 fevral tarixli Sərəncamı, 2009-cu ildə təsdiq edilmiş “Azərbaycan teatrı 2009-2019-cu illərdə” Dövlət Proqramı milli teatrlarımızın maddi-texniki bazasının möhkəmləndirilməsi, kollektivlərin yaradıcılıq potensialının inkişaf etdirilməsi baxımından mühüm dövlət sənədləridir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında teatrların fəaliyyətinə hərtərəfli qayğı göstərilir. Son illər muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, teatr binalarının hamısı yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilib. Bu gün muxtar respublikada fəaliyyət göstərən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı, Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası tamaşaçıların mənəvi və estetik zövqünün formalaşmasında, asudə vaxtın mənalı təşkilində əhəmiyyətli rol oynayırlar.

Sonra Nəriman Nərimanovun “Nadir şah” tarixi faciəsi əsasında hazırlanmış tamaşa göstərilib. Tamaşada XVIII əsrin I yarısında İranda Səfəvilər sülaləsindən sonra xalqın və ordunun köməyi ilə taxta çıxıb 11 il (1736-1747) hökmranlıq edən Nadir şahın ailəsinin faciəvi taleyi və acı həyatı, eləcə də tarixi şəxsiyyət kimi hökmdarlıq fəaliyyəti canlandırılır. Xalq içərisindən çıxmış bir şəxsin taxt-taca varisliklə deyil, mübarizə ilə sahib olması, saraya, digər şahlardan fərqli olaraq, həyati əhəmiyyətli mühüm yeniliklər gətirməsi Nadir şah obrazını səciyyələndirən əsas məziyyətlərdəndir. Tamaşada teatrsevərlər Nadirin dayısı Cavadla dialoqundan sonra quldurluq həyatından əl çəkib Vətənin, xalqın tərəqqisi naminə mübarizə aparan igid bir sərkərdə, sonra isə ədalətli və mütərəqqi fikirli Nadir şah obrazı ilə qarşılaşırlar. Səhnə əsərində Nadir şahın və onun ailəsinin faciəsi despotizm quruluşu şəraitində xalqa kömək etmək istəyən bütün xeyirxah, qeyrətli insanların faciəsi kimi ümumiləşdirilir. Mütləqiyyət hakimiyyəti şəraitində xalqla dövlət arasındakı uçurumun islahatlar yolunda mühüm maneə olduğunu və onun demokratik xalq quruluşu ilə əvəz edilməsinin zəruriliyi ideyası tamaşanın əsas qayəsidir.

Tamaşanın quruluşçu rejissoru Tofiq Seyidov, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı isə Azərbaycan Respublikasının Əməkdar artisti Mübariz Əsgərovdur. “Nadir şah” tamaşasında Xalq artistləri Rza Xudiyev (Nadir şah), Həsən Ağasoy (Cavad), Şirzad Abutalıbov (Cəfər xan), Azərbaycan Respublikasının Əməkdar artisti Bəhruz Haxverdiyev (Rza xan), Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Səməd Canbaxşıyev (Mirzə Mehdi xan), Vüsal Rzayev (Heydər xan), aktyorlardan Nurbəniz Niftəliyeva (Gülcahan), Səyyad Bayramov (Rzaqulu), Nəsimi Məmmədzadə (Təhmas şah), Zakir Fətəliyev (Məhəmməd xan), Cəbrayıl Nəbiyev, Rəhman Dünyamalıyev (yolçular), Uğur Nəsirli (Saleh – Nadir şahı qətlə yetirən), Alim Alışov (Musa – Nadir şahı qətlə yetirən) və Anar Eyvazov (fərraş) rol alıblar.

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti**

## Elan

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya vasitəsilə vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə elan edir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 7 oktyabr 2016-cı il tarixdən 7 noyabr 2016-cı il tarixədək aşağıda qeyd olunan sənədləri Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin Ümumi işlər və kadrlar şöbəsinə təqdim etməlidirlər:

*- ərizə;*
*- şəxsiyyəti təsdiq edən sənədin surəti;*
*- kadrlar uçotunun şəxsi vərəqəsi;*
*- ali təhsil haqqında sənədin surəti;*
*- əmək kitabçasının surəti;*
*- ixtisas dərəcəsini təsdiq edən sənədin surəti (olduğu təqdirdə);*
*- sağlamlıq haqqında arayış;*
*- 2 ədəd fotoşəkil rəngli fonda (4x6).*

***Əlavə məlumat almaq üçün: Telefon: 545-75-35***

| Vəzifə kodu | Struktur bölmə | Ştat sayı | Təsnifat | Vəzifə |
|---|---|---|---|---|
| | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi | | | |
| 230115 | İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin Makroiqtisadi təhlil, proqnozlaşdırma və ərzaq təhlükəsizliyi sektoru | 1 | 6 | Aparıcı məsləhətçi |
| 230215 | Sənaye şöbəsinin Sənaye sahələri və təhlili sektoru | 1 | 6 | Aparıcı məsləhətçi |
| 230315 | İnvestisiyaların təşviqi və ixraca dəstək şöbəsinin İnvestisiyaların təşviqi sektoru | 1 | 6 | Aparıcı məsləhətçi |
| 230415 | Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsinin Rəqabətin qorunması sektoru | 1 | 6 | Aparıcı məsləhətçi |
| 230416 | Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsinin Rəqabətin qorunması sektoru | 1 | 6 | Məsləhətçi |
| 230425 | Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsinin İstehlak bazarına nəzarət və istehlakçı hüquqlarının müdafiəsi sektoru | 1 | 6 | Aparıcı məsləhətçi |
| 230426 | Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsinin İstehlak bazarına nəzarət və istehlakçı hüquqlarının müdafiəsi sektoru | 1 | 6 | Məsləhətçi |
| 230436 | Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsinin Monitorinq və analitik təhlil sektoru | 1 | 6 | Məsləhətçi |
| 230445 | Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsinin Təbii inhisarlar və dövlət inhisarına aid xidmətlərin tənzimlənməsi sektoru | 1 | 6 | Aparıcı məsləhətçi |
| 230513 | Sahibkarlığın inkişafı şöbəsi | 1 | 6 | Baş məsləhətçi |
| 230515 | Sahibkarlığın inkişafı şöbəsi | 1 | 6 | Aparıcı məsləhətçi |
| 230516 | Sahibkarlığın inkişafı şöbəsi | 1 | 6 | Məsləhətçi |
| 230615 | Dövlət əmlakının idarə olunması, özəlləşdirilməsi və cəmiyyətlərlə iş şöbəsinin Dövlət əmlakının idarə olunması, qorunması və səmərəli istifadəsinə nəzarət sektoru | 1 | 6 | Aparıcı məsləhətçi |
| 230625 | Dövlət əmlakının idarə olunması, özəlləşdirilməsi və cəmiyyətlərlə iş şöbəsinin Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və cəmiyyətlərlə iş sektoru | 2 | 6 | Aparıcı məsləhətçi |
| 230913 | Satınalmalar şöbəsi | 1 | 6 | Baş məsləhətçi |
| 230915 | Satınalmalar şöbəsi | 2 | 6 | Aparıcı məsləhətçi |
| 230063 | Hüquq sektoru | 1 | 6 | Baş məsləhətçi |
| 230065 | Hüquq sektoru | 1 | 6 | Aparıcı məsləhətçi |
| 230075 | Regionun inkişafı və dövlət proqramları sektoru | 1 | 6 | Aparıcı məsləhətçi |
| 230806 | Maliyyə və təsərrüfat şöbəsi | 1 | 6 | Məsləhətçi |
| | **Cəmi:** | 22 | | |
| | Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondu | | | |
| 500605 | Sahibkarlığın inkişafı, investisiya layihələrinin ekspertizası və monitorinqi sektoru | 1 | 7 | Aparıcı məsləhətçi |
| 500705 | Maliyyə sektoru | 1 | 7 | Aparıcı məsləhətçi |
| | **Cəmi:** | 2 | | |
| | **Yekun** | 24 | | |

## *“İş yerində əməyin mühafizəsi qaydalarına əməl edilməsi”* mövzusunda növbəti maarifləndirici kurs təşkil olunub

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naxçıvan Regional Peşə Tədris Mərkəzində “İş yerində əməyin mühafizəsi qaydalarına əməl edilməsi” mövzusunda növbəti maarifləndirici kurs təşkil olunub.***

Oktyabrın 3-də başlayan və 5 iş günü davam edəcək ixtisasartırma kursuna “Gəmiqaya Şirkəti” Məhdud Məsuliyyətli Cəmiyyətinin İnşaat Materialları Sənaye Kompleksinin, “Gəmiqaya Nəqliyyat”, “Gəmiqaya Sənaye Kompleksi”, “Gəmiqaya Mebel Fabriki”, “Gəmiqaya Daş Məhsulları Kompleksi”, “Naxçıvan Duz İstehsalı”, “Cahan İnşaat”, “Dizayn İnşaat” Məhdud Məsuliyyətli cəmiyyətlərinin və Cahan Ticarət Mərkəzinin əməyin mühafizəsi üzrə, ümumilikdə, 9 mütəxəssisi cəlb edilib.

Kursda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən əməyin mühafizəsi sahəsində mülkiyyətçinin, işəgötürən və işçilərin vəzifələri, işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətlərinin itirilməsi hallarından icbari sığortası, işçilərin əməyin mühafizəsi qaydalarına əməl etmələrinə nəzarət, qadınların və yaşı 18-dən az olan işçilərin əməyinin mühafizəsinin tənzimlənməsinin xüsusiyyətləri, həmçinin Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Səhiyyə Nazirliyinin nümayəndələri tərəfindən müvafiq olaraq istehsalatda əməyin mühafizəsi və təhlükəsizlik tədbirlərinin görülməməsinə görə məsuliyyət, baş verən qəzalar zamanı zərər çəkənə ilk tibbi yardımın göstərilməsi qaydaları ilə bağlı mövzular tədris olunur.



Yekunda kurs iştirakçılarının bu sahədə bilikləri yoxlanılacaq.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 742